# Füzuli və Zəngilanda Azərbaycan–Türkiyə qardaşlığının yeni səhifəsi yazıldı



***Oktyabrın 26-da qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizə səfərə gəldi. Qardaş ölkənin liderini gətirən təyyarə həmişəki kimi paytaxt Bakıya deyil, birbaşa Füzuliyə – 8 ay əvvəl təməli qoyulmuş və bu qısa zaman ərzində artıq istifadəyə verilmiş hava limanına eniş etdi. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülməsi, Prezident İlham Əliyevin onu şəxsən bu hava limanında qarşılaması işğaldan azad edilən torpaqlarda yeni və müzəffər tarixi səhifələrin yazılmasına doğru atılmış mühüm və maraqlı hadisə kimi əbədiləşdi.***

Əvvəlcə onu bildirək ki, Füzuli Beynəlxalq Hava Limanının qısa müddətdə, həm də ən müasir standartlara uyğun olaraq inşa edilməsi, buraya Beynəlxalq Hava Limanı statusunun verilməsi həm görülən işlərin yüksək peşəkarlıqla aparılmasından, həm Azərbaycanın bütövlükdə işğaldan azad edilən ərazilərdə həyata keçirdiyi layihələrə qlobal miqyasda verilən önəmdən, dövlətimizin ərazi bütövlüyünə nüfuzlu beynəlxalq təsisatlar çərçivəsində verilən dəstəkdən, həm də ölkəmizin bu bölgədə davamlı təhlükəsizliyi, sabitliyi təmin etmək gücündə olduğundan xəbər verir. Şübhəsiz ki, belə bir hadisəni daha əhəmiyyətli edən Füzuli Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanmanın həyata keçirilməsi və bu ilk uçuşun qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə gerçəkləşməsidir. Bellə bir hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir.

44 günlük Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə bitməsindən sonra qardaş ölkənin Prezidenti ikinci dəfədir ki, işğaldan azad edilmiş ərazilərimizə səfər edir. İlk səfər bütün dünyaya Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun, həmrəyliyinin əbədi olacağı barədə mesaj verən, ən mühüm tarixi hadisələrindən biri sayılacaq Şuşa Bəyannaməsinin imzalanması ilə yadda qaldı. Təsadüfi deyil ki, Türkiyə dövlət başçısını qarşılayan cənab İlham Əliyev çıxışında Şuşa Bəyannaməsinə toxunaraq bildirdi ki, dörd ay bundan əvvəl Sizinlə bərabər Şuşa şəhərində olmuşuq. Bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşada imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Bəli, 4 ay əvvəlki və bu səfər göstərir ki, indi Azərbaycan və Türkiyənin Qarabağın, bölgənin inkişafı üçün nəzərdə tutduqları hədəflərin necə gerçəkləşdiyinin şahidi oluruq.

Hava limanının açılışından sonra Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olan hər iki dövlət başçısı burada "Dost Aqroparkın" və ən əsası Zəngəzur dəhlizinin – Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun təməli qoyuldu.

Təbii ki, hər bir açılışın, təməqoyma mərasiminin dövlətimziin iqtisadiyyatı üçün mühüm önəmi var. Lakin geostrateji cəhətdən bu yolun təməlinin qoyulması və Zəngəzur dəhlizinin reallaşması üçün atılan ən mühüm addımın gerçəyə çevrilməsi, ələlxüsus da, qardaş dövlətin başçısının bu önəmli mərasimdə şəxsən iştirakı hadisənin ağırlığını, sanbalını tarixiləşdirir, siyasi-iqtisadi əhəmiyyətini genişləndirir.

Türkiyə Prezidenti də çıxışında dedi ki, davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyiş üçün bu gün əlverişli şərait yaranıb. Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və hərtərəfli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək quru və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək, Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik.

Bildirildi ki, Ermənistan Azərbaycanla problemlərini həll etmək üçün səmimi bir iradə göstərməlidir. Əgər belə olarsa, Türkiyənin Ermənistanla əlaqələrinin də normallaşmasının qarşısında bir maneə qalmayacaq. Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür. Cənab Ərdoğan dedi ki, davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını Türkiyənin də eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram.

Prezident İlham Əliyev də öz növbəsində bu yolun açılışının zəruriliyinə və gələcək körpülərimizin qurulmasına toxunaraq bildirdi ki, bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir parçasıdır. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq. Bu, bir daha bizim birliyimizin, bizim qardaşlığımızın təcəssümüdür. Tam əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq. Dövlətlərimiz bundan sonra da uğurlu işbirliyi edəcək və beləliklə, Türkiyə–Azərbaycan birgə gücü daha da təsirli olacaq.

Zəngəzur dəhlizi haqqında danışan Prezident İlham Əliyev dedi. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir. Buradan keçən Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli-praktiki addımlar atır və əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

Göründüyü kimi, bir il əvvəl Ermənistanın 27 il ərzində işğalda saxladığı və tar-mar etdiyi, viran qoyduğu qədim Azərbaycan torpaqları 44 günlük Vətən savaşından sonra azad olundu. Bu son ildə Prezident İlham Əliyevin tapşırığı ilə həmin ərazilərin dirçəldilməsi prosesi necə sürətlə davam etdirilir, indi biz bunun şahidiyik. Vətən müharibəsindən cəmi bir il keçməsinə baxmayaraq, işğaldan azad edilmiş torpaqlarımızda olduqca böyük işlər görülüb və görülməkdədir. Artıq Zəngəzur dəhlizinin reallaşması labüddür. Bizim nəsil Qarabağın azadlığını görə bildiyi kimi, Zəngəzur dəhlizinin də açılışının şahidi olmağa çox yaxındır. Sevindirici haldır ki, bu möhtəşəm uğurlar və böyük proses Azərbaycan və Türkiyə qardaşlığı, əməkdaşlığı çərçivəsində qazanılır və birgə davam etdirilir.

Azərbaycanın haqlı davasında bir an belə yanından uzaq olmayan qardaş Türkiyə dövlətinin hazırda da bu birliyi, bu səmimiyyəti ən yüksək səviyyədə göstərməsi, dövlət səviyyəsində Azərbaycanın bu diyarı cənnətə çevirmə missiyasında yanında yer almasını hər iki xalq olaraq sevinclə və fərəhlə izləməkdəyik. Bu qardaşlığa, səmimiyyətə ulu öndər Heydər Əliyev vaxtilə ilə dəqiq qiymət verərək, söyləyib ki, Türkiyə və Azərbaycan "bir millət, iki dövlətdir".

Azərbaycan və Türkiyə münasibətləri hər zaman çox yüksək səviyyədə olsa da, etiraf etmək lazımdır ki, tarixin heç bir dönəmində indiki qədər zirvədə olmamışdır. Ölkələrimiz arasındakı münasibətləri ən yüksək zirvəyə qaldıran da məhz Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq və qardaşlığı, hər iki xalqın, dövlətlərimizin ümumi milli mənafeyi naminə göstərdikləri fədakarlığı dərindən qiymətləndirmələri oldu.

Azərbaycan və Türkiyə rəhbərlərinin Füzuli və Zəngilan səfərlərinin uğurla başa çatması, böyük nəticələrin əldə edilməsi gələcək də daha böyük layihə, iş və əməkdaşlıq proseslərinə təkan verilməsini sürətləndirəcək. Bu barədə Prezident İlham Əliyev Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında qeyd etdi ki, gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək: "Əminəm ki, Türkiyə əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı işbirliyi və qardaşlıq əlaqələri daha da güclənəcək və beləliklə, bütün türk dünyası üçün yeni imkanlar açılacaq. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan faktoru ən önəmli faktorlardan biridir".

***Anar ƏLİ,***
***"Xalq qəzeti"***